
Horizon Multidisciplinary Scientific Journal
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904



Review Paper

İNKLÜZİV TƏHSİLİN PRİNSİPLƏRİ

Şərifov İlkin Səməd oğlu

https://orcid.org/0009-0002-6328-6125

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Təhsil menecmenti kafedrasının Ümumi idarəetmə ixtisası üzrə magistrı, Ümumi İdarəetmə, magistr

Article history
Received: 21.10.2026
Revised: 05.11.2026
Accepted: 18.11.2026

*Corresponding Author: İlkin Şərifov, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
Email: ilkinsemedoglu@gmail.com

Xülasə
Məqalədə inklüziv təhsilin nəzəri əsasları, başlıca prinsipləri və onların təhsil müəssisələrinin idarə edilməsində tətbiqi məsələləri araşdırılır. Tədqiqatda insan ləyaqətinə hörmət, bərabərlik, ünsiyyət və iştirak hüququ, qarşılıqlı dəstək, sosial bağlılıq və müxtəlifliyin dəyər kimi qəbul edilməsi inklüzivliyin əsas prinsipləri kimi ümumiləşdirilir. Məqalədə inklüzivliyin tətbiqinə mane olan resurs və sosial amillər, həmçinin makro, mezo və mikro səviyyələrdə yaranan çətinliklər nəzərdən keçirilir.
Açar sözlər: *inklüziv təhsil, idarəetmə prinsipləri, məktəb rəhbərliyi, bərabər imkanlar, sosial inteqrasiya, təhsil mühiti*

GİRİŞ

İnklüziv təhsil hər bir insana fiziki, intellektual, sosial, emosional, dil və digər xüsusiyyətlərindən asılı olmayaraq ümumtəhsil müəssisələrində təhsil almaq imkanı verir. Bu zaman sağlamlıq imkanları məhdud olan şəxslər üçün xüsusi şərait yaradılır, tədris otaqları yenidən qurulur, yeni təlim metodları tətbiq olunur, uyğunlaşdırılmış tədris planı hazırlanır, qiymətləndirmə metodları dəyişdirilir və digər tədbirlər həyata keçirilir.

"İnklüziya" termini ümumi mənada hər hansı bir prosesə daxilolma, cəlbetmə və ya bütövün bir hissəsinə çevrilmə prosesi deməkdir. Təhsillə əlaqədar olaraq UNESCO inklüziyanı "*bütün təhsilalanların təlimdə, mədəniyyətdə və icmalarda iştirakını təmin etmək, məktəblərə qəbuldan imtinanı və məktəbdən kənarlaşdırılmanı azaltmaq yolu ilə onların müxtəlif ehtiyaclarına yönəlmək və bu ehtiyaclara cavab vermək prosesi*" kimi izah edir. Onun əsas məqsədi xüsusi ehtiyacları olan insanların təhsili və peşə hazırlığı üçün azad, maneəsiz mühit yaratmaqdır. [5, s.127]

Əsas hissə. İnklüziya prosesində əlilliyi olan şəxslər, koqnitiv və mental xüsusiyyətləri olan insanlar, etnik azlıqların nümayəndələri, penitensiar müəssisələrdə saxlanılan şəxslər, əmək miqrantları, əcnəbi tələbələr, çətin həyat şəraitinə düşmüş insanlar, istedadlı şəxslər, müxtəlif intellektual və fiziki məhdudiyyətləri olan şəxslər və başqaları iştirak edirlər.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

DOI: https://doi.org/10.5281/zenodo.24368728

ABŞ və Avropa ölkələrinin təhsil siyasətində aşağıdakı təhsil yanaşmalarından istifadə olunur:

- Təhsilə çıxış imkanlarının genişləndirilməsi;
- Meynstriminq, yəni sağlamlıq imkanları məhdud şəxslərin yaşıdları ilə müvəqqəti təhsil alması, bayram tədbirlərində görüşməsi və birgə asudə vaxt keçirməsi;
- İnteqrasiya, yəni sağlamlıq imkanları məhdud şəxslərin məhdudiyyəti olmayan yaşıdları ilə dəyişməz və şagirdlərin ehtiyaclarına uyğunlaşdırılmamış adi təhsil sistemi çərçivəsində birgə təhsil alması;
- İnklüziya, yəni təhsil müəssisələrinin yenidən qurulması, tədris otaqlarının istisnasız olaraq bütün şagirdlərin ehtiyac və tələbatlarına uyğunlaşdırılması. [1, s.402-403]

İnklüziya zamanı sağlamlıq imkanları məhdud və xüsusi təhsil ehtiyacları olan uşaqlar ümumi təhsil prosesinin tədbirlərində daha fəal iştirak edir, yaşıdları ilə ünsiyyət qurur, təbii mühitdə qarşılıqlı əlaqə bacarıqlarını inkişaf etdirir və qrup şəklində təlim fəaliyyətlərinə qoşulurlar. İnkişaf məhdudiyyəti olmayan uşaqlar isə inklüziv siniflərdə daha inkişaf etmiş kommunikasiya bacarıqlarına və fəal davranışa malik olurlar. Həmçinin onlar "məhdud imkanlar" anlayışının nə demək olduğu haqqında daha çox bilik əldə edir və əlilliyi olan şəxsləri qəbul etmə göstəriciləri üzrə daha yüksək nəticələr nümayiş etdirirlər.

İnklüziv təhsilin əsas prinsipləri. İnklüziv təhsilin əsaslandığı bir neçə mühüm ideya mövcuddur. Bunlar inklüziyanın səkkiz prinsipi adlanır və bunlar aşağıdakılardır:

1. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyil.
2. Hər bir insan düşünmək və hiss etmək qabiliyyətinə malikdir.
3. Hər bir insan ünsiyyət qurmaq və dinlənilmək hüququna malikdir.
4. Bütün insanlar bir-birinə ehtiyac duyurlar.
5. Həqiqi təhsil yalnız real qarşılıqlı münasibətlər kontekstində həyata keçirilə bilər.
6. Bütün insanlar yaşıdlarının dəstəyinə və dostluğuna ehtiyac duyurlar.
7. Bütün təhsilalanlar üçün irəliləyiş əldə etmək, edə bilmədiklərinə deyil, edə bildiklərinə əsaslanır.
8. Müxtəliflik həyatın bütün sahələrini zənginləşdirir. [3, s.317]

Birinci prinsipə görə, istənilən şəxsiyyətin dəyəri onun qabiliyyətlərinin və nailiyyətlərinin səviyyəsi və miqdarı ilə ölçülmür. Bütün insanlar bərabər hüquqlara malikdirlər və hər kəs öz insan ləyaqmətinə hörmət olunması, eləcə də hərtərəfli inkişaf hüququna sahibdir. Uşaq hər hansı fəaliyyətdə uğur qazandığı üçün deyil, ilk növbədə insan olduğu üçün dəyərlidir.

İkinci prinsip hər bir insanın düşünmək və hiss etmək qabiliyyətinə malik olduğunu qəbul edir. Bununla da insanın müstəqil şəxsiyyət olduğu təsdiqlənir və birinci prinsip möhkəmləndirilir.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24368728

Üçüncü prinsipə əsasən, tamamilə hər bir insan ünsiyyət qurmaq, dinlənilmək və eşidilmək hüququna malikdir. Başqa sözlə, bu prinsip istənilən səbəbdən hər hansı bir şəxsin cəmiyyətdən təcrid edilməsinin mümkünlüyünü inkar edir. İnklüziv təhsil sistemində hər bir uşaq yaşıdlarının əhatəsində olmaqla tam şəkildə sosiallaşa bilər. Lakin daha vacib olan odur ki, heç bir uşaq diqqətdən kənarda qalmır.

Üçüncü prinsip dördüncü prinsiplə dəstəklənir. Dördüncü prinsipə görə, bütün insanlar bir-birinə ehtiyac duyurlar. Hər bir insan cəmiyyətlə sıx əlaqədə olmalıdır. Uşağın cəmiyyətdən kənarda böyüməsinin ona nə dərəcədə güclü təsir göstərdiyini nümayiş etdirən yaxşı (və bir qədər şişirdilmiş) nümunə heyvanlar tərəfindən böyüdülən "Mauqli uşaqları" hesab edilə bilər. Statistik məlumatlar göstərmişdir ki, bu uşaqların demək olar ki, heç biri sonradan insan cəmiyyətinə tam uyğunlaşa bilməmiş, onların bir çoxu hətta yaşaya bilməmişdir.

Beşinci prinsip təcrübə yolu ilə formalaşdırılmışdır. Bu prinsipə əsasən, uğurlu təhsil yalnız uşağın əldə etdiyi biliklərin insan münasibətləri kontekstində təqdim olunduğu, real həyat şəraitinə yaxın "təbii" mühitdə həyata keçirilə bilər. Xüsusiyyətləri ilə fərqlənən uşaqların cəmiyyətdən kənarda qalması praktikasına son qoyulması tələbi inklüziyanın ən əsas tələblərindən biridir. İnklüziv təhsil təhsil prosesinin bütün iştirakçılarında fərqli xüsusiyyətlərə malik insanlara qarşı tolerant münasibət formalaşdırmağa çalışır.

Altıncı prinsip psixologiya qanunlarından irəli gəlir. Bu prinsipə görə, cəmiyyətin hər bir üzvü digər insanların, xüsusilə də öz yaşıdlarının dostluğuna və dəstəyinə ehtiyac duyur. İnsanların ən böyük arzularından biri cəmiyyət tərəfindən qəbul olunmaqdır. Ünsiyyət isə təxminən eyni yaşda olan insanlarla daha asan qurulur.

Yeddinci prinsip inkişafetdirici təlim prinsipi ilə əlaqəlidir. Bu prinsip təsdiq edir ki, uşaqlar təhsildə yalnız müəyyən zehni səy tələb edən, asanlıqla yerinə yetirilə bilməyən tapşırıqları icra etdikləri halda irəliləyiş əldə edə bilərlər. Yəni onlar asanlıqla həll edilən deyil, müəyyən zehni səy göstərdikdən sonra yerinə yetirilə bilən məsələləri həll etməlidirlər. İxtisaslaşdırılmış müəssisələrdə, ətrafdakı hər şeyin uşağın xüsusiyyətlərinə uyğunlaşdırıldığı şəraitdə uşaq real həyata hazırlamayan bir mühitdə olur. İnklüziv təhsil isə uşaqların qarşısına dəf edə biləcəkləri maneələr qoymaqla onların inkişafına kömək edir [6, s.2076-2077].

Səkkizinci prinsip bu fikri dəstəkləyərək bildirir ki, müxtəliflik insan həyatının bütün sahələrinə fayda gətirir. Başqa sözlə, inklüziya yalnız cəmiyyətdən kənarda qalan insanlar üçün deyil, bütövlükdə cəmiyyət üçün də yeni imkanlar yaradır [2, s.140-146].

İnklüziv təhsilin tətbiqi zamanı yaranan çətinliklər. Xüsusi təhsil ehtiyacları və təlim çətinlikləri olan şagirdin təhsil prosesindən kənarda qalmasının əsas səbəbləri resurs və sosial səbəblərə bölünür. Bir çox maneələr "memarlıq" mühitinin tərkib hissəsidir. Məsələn, pandusların, liftlərin, piyada


This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 103-109
DOI: https://doi.org/10.5281/zenodo.24368728

keçidlərində səsli svetoforların və digər vasitələrin olmaması buna aiddir. Lakin sosial modelə əsasən, bunlar "ikinci dərəcəli" maneələrdir. Onların aradan qaldırılması vacibdir, lakin ilkin səbəblər aradan qaldırılmadan bu maneələrlə mübarizə sonsuz xarakter alır.

İlk növbədə, təhsildə maneələr şagirdlər, valideynlər və müəllimlər arasındakı qarşılıqlı münasibətlər nəticəsində formalaşır. Digər mühüm amillərə ölkədə həyata keçirilən sosial siyasət, mədəniyyət, sosial və iqtisadi aspektlər daxildir. Maneələr həm məktəbdə, həm yerli icmada, həm regional, həm də milli siyasət səviyyəsində meydana çıxa bilər.

Resurs maneələri. Bu maneələrə şagirdlərin xüsusi təhsil ehtiyaclarını ödəmək üçün maddi vəsaitin çatışmazlığı, həmçinin biliklərin kifayət qədər olmaması və inklüziya ilə bağlı aydın məktəb siyasətinin mövcud olmaması daxildir. [4, s.815] Resurs maneələri üç amilə bölünür:



Şəkil 1.

Sosial maneələr. Sosial maneələrin formalaşması üç mərhələdə [4, s.816] baş verir.



Şəkil 2.

Birinci mərhələ, yəni makrosəviyyə dövlətin siyasi və sosial-iqtisadi institutlarının fəaliyyəti, eləcə də qanunvericilik sistemi ilə bağlıdır. Buraya əlilliyi olan şəxslərin təhsili ilə əlaqədar federal

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24368728

qanunvericiliyin təkmil olmaması, onun beynəlxalq normalara uyğun gəlməməsi, inklüziya ilə bağlı vahid dövlət siyasətinin olmaması və digər məsələlər daxildir. İkinci mərhələ, yəni mezosəviyyə ideologiya, kütləvi mədəniyyət və təhsil sahəsində sosial münasibətlərlə əlaqəlidir. Bu mərhələdə əsas maneələr sağlamlıq imkanları məhdud şəxslərə qarşı mövcud olan mədəni stereotiplər, dözümsüzlük və tolerantlığın olmaması, əlilliyi olan uşaqların müşayiəti və dəstəklənməsi üzrə proqramların mövcud olmaması və s. hesab olunur. Üçüncü mərhələ, yəni mikrosəviyyə müəllimlərin müxtəlif təhsil ehtiyaclarına malik uşaqların birgə təhsil almasının mümkünlüyünü psixoloji baxımdan qəbul etməsi, onların peşəkar mövqeləri, stereotipləri və inkişaf xüsusiyyətləri ilə fərqlənən şagirdlərə münasibətdə davranışları, həmçinin valideyn icmasının mövqeyi ilə bağlıdır.

İnklüziv təhsil prinsipi ilk dəfə 1994-cü ilin iyun ayında qəbul edilmiş və sənədlə təsbit olunmuş Salamanka Bəyannaməsində öz əksini tapmışdır. Bu Bəyannamə beynəlxalq ictimaiyyəti hər bir dövlətdə inklüziv təhsil sisteminin yaradılmasına diqqət yetirməyə və bu istiqamətdə fəaliyyətə başlamağa çağırırdı. Sənəddə qeyd olunurdu ki, inklüziv prinsip əsasında fəaliyyət göstərən məktəblər "*ayrı-seçkilik yaradan baxışlarla mübarizənin ən səmərəli vasitəsinə*" çevrilir və eyni zamanda təhsil sisteminin effektivliyini artırır. [7, s.670-671]

İnklüziv yanaşma bütün uşaqların təhsilə bərabər çıxışını təmin edən çevik yanaşmadır. Qeyd etmək lazımdır ki, XXI əsrin ikinci onilliyində bir çox insanlar sağlamlıq xüsusiyyətləri ilə fərqlənən uşaqlar üçün ayrıca təhsil müəssisələri mövcud olduğu halda inklüziyanın nə üçün bu qədər vacib olduğunu başa düşmürlər. İnklüziya, ilk növbədə, bütün uşaqların sosial mühitə daxil edilməsini nəzərdə tutur. Çünki sağlamlıq imkanları məhdud uşaqlar hər şeydən çox süni olmayan, eyni zamanda xoş münasibətlərin hökm sürdüyü təhsil mühitinə ehtiyac duyurlar.

"Xüsusi" uşaqlar üçün xüsusi hazırlanmış proqramlar internat məktəblərinin təcrid olunmuş mühitində həyata keçirilir. Korreksion məktəblər uşaq üçün onun "çatışmazlıqlarına" diqqətin yönəldildiyi qapalı bir dünya yaradır. İnklüziv yanaşma isə uşaqlara cəmiyyətin bir hissəsinə çevrilmək və həqiqi həyat yaşamaq imkanı verir.

Nəticə. İnklüziya ənənəvi məktəb sisteminin şagirdlərin xüsusiyyət və ehtiyaclarının bütün müxtəlifliyini qəbul edəcək şəkildə yenidən qurulmasına çağırır. İnklüziv yanaşma çərçivəsində bu müxtəliflik həll edilməli olan problem kimi deyil, təhsil prosesini təkmilləşdirmək üçün istifadə edilə bilən resurs kimi qəbul olunur.

İnklüziv təlim praktikasının əsasını hər bir şagirdin fərdiliyinin qəbul edilməsi ideyası təşkil edir. Buna görə də təlim prosesi hər bir uşağın xüsusi ehtiyaclarını ödəyəcək şəkildə təşkil edilməlidir. Əvvəllər mövcud olmuş ixtisaslaşdırılmış təhsil sistemi praktikada göstərmişdir ki, fərdi yanaşma yalnız zərurət yarandığı hallarda tətbiq edilirdi. Gələcəyin məktəblərində isə hər bir uşaq təhsildə

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24368728

daha yaxşı nəticələr əldə etməsinə kömək edəcək psixoloji dəstəklə, diqqətlə və zəruri şəraitlə təmin olunmalıdır.

İstifadə edilmiş ədəbiyyatın siyahısı

1. Ainscow, M., & Sandill, A. (2010). Developing inclusive education systems: The role of organisational cultures and leadership. *International Journal of Inclusive Education, 14*(4), 401–416. https://doi.org/10.1080/13603110802504903

2. Bhowmik, M. K., Walker, A., & Bryant, D. (2023). Reconceptualizing inclusive leadership to address diversity in schools. *Multicultural Education Review, 15*(2), 139–156. https://doi.org/10.1080/2005615X.2023.2250713

3. DeMatthews, D. E., & Mueller, C. (2022). Principal leadership for inclusion: Supporting positive student identity development for students with disabilities. *Journal of Research on Leadership Education, 17*(4), 315–332. https://doi.org/10.1177/19427751211015420

4. Florian, L., & Black-Hawkins, K. (2011). Exploring inclusive pedagogy. *British Educational Research Journal, 37*(5), 813–828. https://doi.org/10.1080/01411926.2010.501096

5. Lakkala, S., Beaton, M. C., & Kokko, K. (2024). A conceptual analysis of inclusive education in terms of participation and agency. *Support for Learning, 39*(3), 125–136. https://doi.org/10.1111/1467-9604.12477

6. Norwich, B. (2025). A rights-informed and respecting approach to more inclusive schools: Based on a Citizens' Panel pilot project. *British Educational Research Journal, 51*(5), 2075–2098. https://doi.org/10.1002/berj.4171

7. Scheer, D. (2021). Integrated framework model for the leadership role of principals in inclusive education. *European Journal of Education, 56*(4), 660–680. https://doi.org/10.1111/ejed.12480

ABSTRACT

PRINCIPLES OF INCLUSIVE EDUCATION

Sharifov Ilkin Samad oglu

This article examines the theoretical foundations and core principles of inclusive education, as well as issues related to their application in the management of educational institutions. The study identifies respect for human dignity, equality, the right to communication and participation, mutual support, social cohesion, and the recognition of diversity as a value as the fundamental principles of inclusion. The article also explores the resource-related and social factors that hinder the implementation of inclusion, along with challenges arising at the macro, meso, and micro levels.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 103-109
DOI: https://doi.org/10.5281/zenodo.24368728
Keywords: inclusive education, management principles, school leadership, equal opportunities, social integration, educational environment.

РЕЗЮМЕ

ПРИНЦИПЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

Шарифов Илькин Самад оглу

В статье рассматриваются теоретические основы, основные принципы инклюзивного образования и их применение в управлении образовательными учреждениями. В исследовании обобщены такие основные принципы инклюзии, как уважение человеческого достоинства, равенство, право на общение и участие, взаимная поддержка, социальная сплоченность и признание многообразия как ценности. В статье рассматриваются ресурсные и социальные факторы, препятствующие реализации инклюзии, а также трудности, возникающие на макро, мезо- и микроуровнях.

Ключевые слова: инклюзивное образование, принципы управления, управление школой, равные возможности, социальная интеграция, образовательная среда.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license